***XƏBƏRDARLIQ***

## *MÜQƏDDİMƏ*

Artıq 20-ci əsrin sonu və 21-ci əsrin astanasındayıq. Elm və texnika günbə-gün inkişafdadır və bəşər övladı bir çox sahələrdə böyük nailiyyətlər qazanmışdır. O cümlədən demək olar ki, bu günkü tibb elmi, insanın mübtəla olduğu xəstəliklərin çoxunu müalicə edib, yerdə qalan bir neçə xəstəliyin də dərmanını tapmaq üçün cəhd göstərir. Lakin bununla belə insan həyatının əsası olan ruhun, müalicəsi üçün hələlik çarə axtaran tapılmamışdır. Bir sözlə desək, bu günün və bu əsrin insanı, öz ruh və batinini unudaraq zahiri görünüşünü qiymətləndirən və ruhuna qarşı laqeyd olan bir mövcuddur. Hələ də qərb ölkələrindən «azadlığın olması və onun lazımlığı» barədə fəryadlar və səs-küylər eşidirik ki, bu kimi aldadıcı sözlər hətta müsəlman ölkələrində də yayılaraq bu ölkələrin millətlərinə öz acı və qorxunc təsirlərini qoyur. Azadlıq, özlüyündə çox yaxşı və müqəddəs bir şeydir, lakin öz hədd və hüdudundan təcavüz etdikdə peşmançılıq və bədbəxtlikdən başqa bir xeyir vermir.

İyirminci əsrin vəziyyəti bizim bu sözümüz üçün canlı sübutdur. Başqa müsəlman ölkələri kimi bizim də doğma vətənimiz qərbin iddia etdiyi «azadlıq» şüarının təsiri altına düşərək, böyük və qorxulu bir ictimai çətinliklə üzləşmişdir. Bu çətinlik cavanlar arasında yayılmış, «cinsi azğınlıq»-dır. Lakin bununla belə indiyədək bu çətinliklə üzləşib və onu aradan aparmaq üçün əsaslı addım atılmamış, əksinə onun daha da çoxalması üçün cəhd göstərilmişdir

Bir sıra qəzetlər, jurnal və televiziya kanalları və s.... Buna misal ola bilər. Ölkəmizin əziz cavanlarını fəaliyyətdən, işdən, ixtiradan və bir çox dəyərli və lazımlı işlərdən saxlayan əsas amil, onların ruhi çətinliyidir.

Onların gənclik şövqünü itirərək, xoşa əlməz həyat sürmələrinin əsası, öz daxili və ruhi narahatçılıqlarından irəli gəlir. Bu narahatçılığın əsas səbəbi də «cinsi azğınlıqdır.»

Qarşınızda olan bu kitabça sizin çətinliyiniz, onun səbəbləri və çarəsi haqqında söhbət edir. Amma «azadlıq» haqda deməliyik ki, bəzi qərb filosoflarının əqidəsinə əsasən, insanın səadətə çatması və həyatda xoşbəxt olması, onun cinsi məsələlərinə bağlıdır ki, insan bu kimi işlərdə azad olarsa, bütün sarsıntı və ruhi əzablardan yaxa qurtaracaqdır!!!

Lakin biz hazırki, əsrdə bu puç əqidənin insan həyatı üçün nə qədər təhlükəli olduğunu və onun həyatına nə qədər bədbəxtçilik gətirdiyini görürük. Bu əqidə başqa ölkələrdən qabaq, həmin qərb ölkələrində böyük

rusvayçılıqlar yaratmış və onları puç həyata doğru yönəltmişdir.

Son illərdə aparılan hesablamalara görə, Amerika Birləşmiş Ştatlarında hər altı saniyədə qadınlara qarşı bir cinsi təcavüz (zorlama) baş verir. Biz bu haqda daha da ətraflı danışacaq və qərb aləminin iddia etdiyi «azadlığ»-ın puç olduğunu sübut edəcəyik.

Amma bunu deməliyik ki, hazırki kitab məhz ölkəmizin əziz gənclər və yeniyetmələri həmçinin onların çətinliyini aradan qaldırmaq üçün hazırlanmışdır. Ümid edirik ki, bu ağır vəzifəni bacardığımız qədər yerinə yetirib öz kömək əlimizi əziz gənclər və yeniyetmələrə uzadaq. İnşaallah.

# İNSANIN YARANIŞI VƏ CİNSİ AZĞINLIQ

Əzəldən qoyulmuş ilahi təqdirə əsasən kişi və qadının müəyyən əlaqələrindən sonra ata belində olan sperma ana bətninə keçir və getdikcə ayrı bir şəklə, yəni insan formasına düşməyə başlayır.

Lakin ata və ana, bətndə mövcud olan varlığın kimliyini, necəliyini və hansı cinsdən olduğunu anlamır. Ana, öz analıq vəzifəsini yerinə yetirərək bətnində olan uşağı doqquz ayadək özü ilə gəzdirir, əziyyətlərə qatlaşır və bu yolda bir çox çətinliklərə göz yumur.

Ata və ana, birlikdə dünyaya yeni qədəm qoyan körpənin intizarındadır. Lakin nədənsə günlər və aylar gəlib çatmaq bilmir. Bətndə qərar tutmuş sperma qan parçası və sonra ətə çevrilir, daha sonra ət parçasına sümük verilir və nəhayət insanın böyük xaliqi tərəfindən üfürülən ilahi ruh, ana bətnində olan varlığı, vücudu kamil olan bir insana çevirir və bundan sonra onun oğlan və yaxud qız olduğu aydınlaşır.

Axır ki, ata və ananın səbir- sizliklə yolunu gözlədikləri körpə dünyaya qədəm qoyur. Bəşəriyyətin hidayət kitabı Qurani-kərimdə belə oxuyuruq:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى...

Ey insanlar! Həqiqətən sizi bir kişi və bir qadından xəlq etdik.[1]

---

[1] Hücərat surəsi, ayə-12.

Qurani-kərimin ayrı bir yerində isə belə oxuyuruq:

يَا أَيُّهَا الْإِنسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ الَّذِي خَلَقَكَ فَسَوَّاكَ فَعَدَلَكَ

Ey insan! Böyük Rəbbinin huzurunda səni qürurlandıran nədir? O rəbbin ki, səni yoxdan vücuda gətirib, kamil insan şəkilinə salaraq səni münəzzəm etdi...[2]

Doğrudan da insan hansı üzlə bu böyük Rəbbin hüzurunda qürurlanıb onun əleyhinə qiyam etsin?

Qurani-kərimin dediyinə əsasən, görəsən insanın yada düşmədiyi günü olmuşdurmu?

هَلْ أَتَى عَلَى الْإِنسَانِ حِينٌ مِّنَ الدَّهْرِ لَمْ يَكُن شَيْئًا مَّذْكُورًا

Görəsən insan üçün onun yada salınmadığı ruzigarı keçmişdirmi?[3]

Beləliklə İnsan daima öz Rəbbini və böyük xaliqini xatırlamalı və onun hüzurunda aciz olduğunu fikirləşməlidir ki, məhz bu yolla əbədi səadətə nail ola bilər.

Haqqında danışdığımız insan (dünyaya gəlmiş yeni körpə) bir müddət öz anasının südü ilə qidalanır və ana da öz növbəsində övladına məhəbbət və atifə ilə süd verir.

Ata və ana birlikdə əl-ələ verib körpənin boya-başa çatması yolunda min bir əzab-əziyyətə dözür və zəhmətlərə qatlaşırlar. Körpə uşaq gün-gündən inkişaf edir, ata və anasına qarşı isinişməyə başlayır.

---

[2] İnfitar surəsi, ayə 6-7

[3] İnsan surəsi, ayə-1.

Bəzi psixoloqların nəzərinə əsasən, körpə uşağın elə bu vaxtlardan 7-8 yaşlarına qədər, öz ata və anasına ehtiyacı olur və ata-ana məhəbbəti onun qəlbində get-gedə çoxalır.

Uşaq bu mərhələdə yavaş-yavaş dil açıb danışmağa başlayır və bu mərhələdən sonra ayrı bir mərhələyə qədəm qoyur. O, bu mərhələdə ətraf mühiti öyrənmək və onlar haqqında məlumat toplamaq istəyir. Bu mərhələdə onun həyat təcrübəsi yox dərəcəsindədir və o hələlik həyatın çətinliklərini görmədiyi, həmçinin bir çox azğınlığa düçar olmadığı üçün sadə və təmiz zehn və qəlbə malikdir. Onun bu mərhələdə hamıdan çox rəfiq və dosta ehtiyacı vardır. O, ata və anasına məhəbbət bəsləməklə yanaşı, 7 və ya 8 illik bir dosta ehtiyaclıdır.

Bu mərhələ də sona yetdikdən sonra o, yeni bir mərhələyə qədəm qoyur ki, bu mərhələyə keçmək çox çətin və həyatın mühüm hadisələrindən sayılır. İnsan bu mərhələdə yeniyetməlik və daha sonra gənclik dövrünə qədəm qoyur.

O, məhz bu mərhələdə bir çox böyük çətinliklərlə üzləşməli olur və həyatının həll edici anlarını keçirir. İnsan bu mərhələdə həm ruhi, həmdə cismi dəyişiklikləri müşahidə edir, özünün keçmiş mərhələ ilə müqayisədə dəyişildiyini görür. O, bu dəfə özündə cinsi yetginliyi hiss edir.

Belə bir həssas dövranda ona «cavanlığının qədrini bil» sözünü deyən lazımdır. Adətən oğlanlar 15 , qızlar isə 9 yaşında cinsi yetginliyə çatırlar. Bu yetginlik onların boyunun uzanması, çəkisinin artımı, sümüklər və əzələlərin inkişafı və.. ilə gözə çarpır.

Cinsi yetginlik, həqiqətdə yeni doğuluşdur. İnsan bu mərhələdən sonra «müstəqil olmaq» «azad fikirləşmək» və «başqasından söz eşitməmək» kimi düşüncə və rəftarlara malik olur. Adətən yeniyetmələr həyatın bu mərhələsində tezküsən olur və kiçik bir sözdən belə ürəkləri sınır. Hətta valideynlər «biz artıq bu uşağı tanımırıq, o təmamilə dəyişilmişdir» deyə şikayətlənirlər.

Cavan bu mərhələdən sonra daimən məsuliyyətli işi öhdəsinə alıb, həmişə öz adının hallanmasını istəyir. O , bu dövranda hövsələsiz olaraq özünü tez itirir və qəzəbli olur. Onun ətrafında olanlar, (ata, ana, bacı, qardaş və...) ehtiyatlı olmalı və onunla mehirbancasına rəftar etməlidirlər.

Əziz peyğəmbərimiz həzrət Məhəmməd (s) 14 əsr öncə valideynlər və müəllimlərə belə sifariş etmişdir:

Sizə sifariş edirəm ki, gənclərə qarşı mehriban olun. Çünki, onlar (ömrün bu dövranında) ürəyi yumşaq və incə ürəkli olurlar.

Cavanın bu mərhələdə uzləşdiyi yaxşı xüsusiyyətlərdən biri də onun «məhəbbəti»-dir. O, ata, ana, bacı-qardaş, qohum-əqrəba və sairəyə məhəbbət etməklə yanaşı, özünün müxalif cinsinə qarşı da şiddətli məhbbət göstərir ki, bu da öz növbəsində kainatın xaliqi tərəfindən Adəm övladlarına hədiyyə edilmiş böyük bir negmət sayılır.

Bu zaman valideynlərə, müəllimlərə və s... lazımdır ki, bu yeniyetməyə «şəxsiyyət» verib, onun şəxsiyyətini sındıran hər bir işdən əl çəksinlər. Nəhayət yetginliyə çatmış oğlan və qız həyatının ən mühüm və həll edici

mərhələsi, onların yetginlikdən sonra müxtəlif səbəblər üzündən cinsi azğınlığa uğramasıdır.

Bu azğınlığa uğramış hər bir gənc və ya yeniyetmə öz çətinliyinin daha da təhlükəli olduğunu bilib, onun aradan qaldırılması yolunda addım atmazsa, böyük ziyankarlıq və peşmançılıqla üzləşəcək və həyatının şirinliyini dərk etməkdən aciz qalacaqdır.

Cinsi azğınlıq təkcə qərb ölkələrində deyil, hətta Afrika, Asiya və çox təəssüflər olsun ki, müsəlman ölkələrində də mühüm ictimai problemlərdən sayılır.

Qərb ölkələrində bu böyük çətinliyi aradan qaldırmaq üçün bir çox ictimai məsələlər üzrə filosof və psixoloqlar, müxtəlif nəzəriyyələr irəli sürmüş, lakin onların nəzəriyyələri yanlış olduğundan, mövcud vəziyyəti daha da gərginləşdirmişdir. Onların irəli sürdüyü nəzəryyələrdən biri də belədir: «Bəşərin bir şeyə rəğbət və meyli, həmin sahədə azad olmaqla azalar, o sahədə məhdudiyyətlə üzəşdikdə isə çoxalıb artmağa başlayar. Bizim cinsi ləzzətlərin pis nəticələrinin və bu sahədə baş verən azğınlıqların qarşısını almaq üçün yeganə yolumuz, bu sahədə hər bir maneə və məhdudiyyəti insanların qarşısından götürüb, onlara tam azadlıq verməkdən ibarətdir...»

Əziz oxucu! Elə bu yanlış nəzəriyyələrə əsasən bir çox ölkələrdə əxlaqsız filmlər, səhnələr, kitablar və s... azad qoyulmuş və təssüfflər olsun ki, belə bir böyük çətinliklə üzləşmişlər.

Qərb aləmi isə texnika və bir çox sahələrdə inkişaf etdiyinə baxmayaraq, əxlaq və mənəvi məsələləri öyrənmək üçün İslam dini qarşısında diz çökməlidir.

Çünki, «Məsihiyyət» dini onların çətinliklərini aradan qaldırmaqda aciz qalmış və bu haqda həll edici bir göstəriş verməmişdir.

«Məsihiyyət»-in bu cür ictimai çətinlikləri aradan aparmaq üçün dəyərli göstərişi olsaydı, onlar heç vaxt cənab Froyd və bu kimi sair alim və psixoloqlara üz gətirməz, onlar da bu çətinlikləri aradan qaldırmaq üçün özlərindən yanlış fikir və nəzəriyyələr irəli sürməz və nəticədə bəşəriyyət daha da azğınlığa tərəf yönəlməzdi. Əlbəttə, təkcə «Məsihiyyət» deyil, «Yəhudiyyət», «Zərdüşt» və bütün din və məzhəblər də bəşəriyyətin ehityacları, o cümlədən bu kimi ictimai və fərdi çətinlikləri həll etməkdə aciz qalmışdır ki, yeganə qurtuluş yolu, müqəddəs İslam dini və onun dəyərli göstərişləridir.

Bu söz sadəcə iddia olmayaraq bütün din və məzhəblərə öz bacarağını göstərmiş, ağıl sahibləri isə İslam dininin bu bacarığını təsdiq etmişdir. Buna görə də İslam dininin yalnız ibadi bir din olduğunu iddia edənlər yanılmış və xəta etmişlər.

Böyük Rəbbimiz, Qurani-kərimdə həzrət peyğəmbərə (s) belə göstəriş verir:

قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللهِ إِلَيْكُمْ جَمِيعًا

De ki: Ey insanlar! Mən Allahın sizin hamınız üçün göndərilmiş peyğəmbəriyəm... [4]

Həzrət Məhəmməd (s) və müqəddəs İslam şəriəti bütün bəşəriyyət üçün göndərilmişsə,

[4] Ə"raf surəsi, ayə-158

şübhəsiz bəşəriyyətin bütün çətinlik və problemlərinə cavab verib onları həll etməyə də qadirdir. Qurani-kərimin digər surəsində oxuyuruq:

الَر كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ

...İnsanları zülmətlərdən nura (aydınlığa) doğru çıxarmaq üçün bu kitabı (Quranı) sənə nazil etdik... [5]

Hal-hazırda bəşəriyyətin düçar olduğu saysız-hesabsız çətinliklər, azğınlıq və fəsadlar zülmət və bədbəxtlikdən başqa bir şey deyildir. Bunu hər hansı bir şüurlu insan təsdiq edir ki, onlardan yaxa qurtarmaq üçün yeganə çıxış yolu, müqəddəs İslam dini və Qurani-kərimdə bəyan olunmuş dəyərli göstərişlərdir.

Bəli, şübhəsiz bu zülmət və bədbəxtlikdən yaxa qurtarıb aydınlıq və səadətə nail olmaq üçün hamılıqla İslam dininə üz gətirib, bu böyük və misilsiz dinin göstərişlərini dinləməliyik. Cinsi azğınlığın növlərinə gəldikdə isə deməliyik ki, əsasən qanuni yolla evlənməkdən başqa bütün növ cinsi bəhrələnmə, azğınlıq sayılır. Məsələn: Bir kişi ilə qadının qeyri-qanuni halda bir-biri ilə cinsi əlaqədə olması, iki kişinin bir-biri ilə cinsi məsələlərdə rabitə saxlaması, özündən (cinsi orqanından) sperma xaric etməsi və s...

Biz növbəti fəsillərdə cinsi azğınlığın bəşər həyatı üçün nə qədər ziyanlı olmasını və bu

---

[5] İbrahim surəsi, ayə

azğınlıqların hər biri haqqında İslam dini və fəqihlərin nəzər və fətvalarını, həmçinin bu azğınlıqlardan xilas olma yollarını, əziz oxucuların nəzərinə çatdıracağıq. İnşaallah.

## *HESABATLAR VƏ MƏLUMATLAR*

Hörmətli oxucu! Bu hissədə, cinsi azğınlıq nəticəsində baş vermiş hadisə, təcavüz və fəsadlar haqqında məlumatları diqqətinizə çatdıracaq, qərb alimlərinin özbaşınalıqla irəli sürdüyü nəzəriyyələrin nəticəsində bəşəriyyətin necə də acınacaqlı vəziyyətə düşməsini sübut edəcək və nəhayətən bu barədə qəzavət etməyi sizin ixtiyarınıza qoyacağıq.

Siz bu məlumatlarda görəcəksiz ki, milyonlarla insan cinsi azğınlıqlar nəticəsində hələ də müalicə yolu tapılmayan «SPİD» xəstəliyinə tutulmuş və minlərlə uşaq qeyri-qanuni yolla dünyaya gəlmişdir.

Bu acınacaqlı vəziyyət isə, hələ də davam etməkdədir. Siz mülahizə edəcəksiniz ki, qərb aləmi artıq bu xoşa gəlməz və acınacaqlı vəziyyətdən bezmiş və elə buna görə də qərb ölkələrində intihar edənlərin sayı artmışdır. Həmçinin qeyd etməliyik ki, burada verilmiş məlumatlar əsasən bir sıra mötəbər qərb xəbər agentliklərinin verdiyi məlumatlardan ibarətdir ki, müxtəlif qəzet və jurnallardan götürülmüş və bu məlumatlar, 20-ci əsrin son on illərinə aiddir.

Ümidvaram ki, siz əziz oxucular bu məlumatları oxumaqla, bəşəriyyətin acınacaqlı vəziyyətini başa düşüb özünüzdə «bəs nə etmək lazımdır?» sualını vücuda gətirəsiniz.

İndi isə diqqətinizi bu haqda hesabat və məlumatlara cəlb edirik:

*Britaniya agentliyinin vediyi xəbərə əsasən hər il bu ölkədə məktəb və univerisitet tələbələrindən özünü intihar edən beş nəfərdən biri qızdır və 1995-ci ildə bu ölkədə vəfat etmiş 738-gəncin 19%-i özünü intihar etmişdir.

*Rusiya agentliyinin verdiyi xəbərə əsasən bu ölkənin 147 milyon əhalisindən iki milyon nəfəri narkotik maddələrdən istifadə edir və bu vəziyyət artmaq üzrədir.

*Britaniya mütəxəssislərinin dediklərinə görə bu ölkənin nümunə və əxlaqlı məktəb şagirdləri klub, televizor və videonun əxlaqsız səhnə və verilişlərinə tamaşa etdiklərinə görə, get-gedə azalmaq üzrədir və bu cür şagirdlərin sayı 1993-cü ildən 1997-ci ilədək, üç də iki faizdən üç də bir faizə enmişdir.

*Bolqarıstanın «Animus» qadınlar təşkilatının yaydığı xəbərə əsasən, 10 min qadın və qız bu ölkədən çıxarılaraq xaricdə iffətsizlik və çirkin işlərə məcbur olunmuşlar. Onlar əsasən bir sıra Avropa ölkələrinə və Türkiyəyə aparılmışlar.

*1996-97 təhsil illərində Amerikanın məktəblərində aparılmış tədqiqatlara əsasən, bu məktəblərdə 188 silahsız dava, 116 oğurluq və 98 dəfə digərinin mülkünü dağıtmaq kimi hadisələr baş vermiş və Amerika məktəblərinin 10%-də aparılmış yoxlamalara əasən bu məktəblərdə bir il ərzində 4100 dəfə cinsi təcavüz baş vermişdir.

*Aparılmış tədqiqatlara əsasən dünyanın ən təhlükəli 13 şəhərindən doqquzu Amerika Birləşmiş Ştatlarında yerləşir ki, Vaşinqton, LosAncles, Çikaqo, Finiks, Nyuyork və Sandieqo şəhərləri buna misal ola bilər.

*Britaniya daxili işlər nazirliyinin yaydığı xəbərə əsasən, ölüm və cinayət sarıdan Avropanın ən təhlükəli şəhərləri, Rusiyanın paytaxtı Moskva şəhəri və ondan sonra Helsink, Lissabon, Amsterdam, Belfast və Cenevrə şəhərlərindən ibarətdir. Bu məlumat 1994-96-cı illərdə aparılmış tədqiqatların nəticəsidir.

*Amerika konqresi son ildə ölkənin təhsil ocaqlarında cinayət və pozğunluğun qarşısını almaq üçün, 95 milyon dollar büdcə ayırmışdır.

*İtaliya agentliyinin Romadan verdiyi xəbərə əsasən hər beş İtaliyalının ikisi əxlaqsız filmlərə tamaşa etməyə razıdırlar. Həmçinin İtaliyalı ailələrdən aparılmış hesablamalara görə onlardan yalnız 35%-i əxlaqsız kinolara baxmaqla müxalifdirlər.

*1998-ci ildə aparılmış hesablamalara görə dünyada 190 milyon nəfər narkotik və digər zərəli maddələrdən istifadə edirlər.

*Doktor Sankay Çuq Dehlidə «İrna» agentliyinə verdiyi müsahibəsində demişdir: Hindistandakı ictimai vəziyyət elə gərgindir ki, 12-15 yaşlı qızlar tək və ya valideynləri ilə birlikdə polikilinikalara gəlib «abort» etdirirlər ki, aparılmış tədqiqatlara görə onların 20%-ni ailə həyatı qurmayan subay qızlar təşkil edir. Həmçinin

Hindistan gənclərinin azğınlığı get-gedə artmaq üzrədir ki, 1991-ci ildə bu ölkədə dünyaya gəlmiş 25 milyon körpənin 11 milyonu abort olunmuşdur.

*Hindistanın sanitariya nazirliyi ölkə parlamentində etiraf etmişdir ki, ölkədə qeyri-qanuni abort məsələsi çoxalmaq üzrədir. Hindistan əhalisinin nəzərinə əsasən bu ictimai pozğunluqların əsas amili, «peyk ontenalı» (krosna), televizor və klub filmlərinin pis və üzdəniraq səhnələridir.

*Avropa birliyinin nəzdində fəaliyyət göstərən hesablama idarəsinin apardığı tədqiqatlara əsasən Avropada dünyaya gələn hər dörd körpədən biri qeyri qanunidir. Avropa qitəsində dünyaya göz açmış qeyri-qanuni uşaqların sayı, 1979-cu ildə 10%, son illərdə isə 20%-i ötmüşdür. Avropanın şimali ölkələrində isə vəziyyət daha da acınacaqlıdır. Aparılmış hesablamalara əsasən İslandiyada doğulmuş uşaqların üçdə ikisi, Danimarka, Norveç, İsveçrə və Estoniyada doğulmuş uşaqların isə üçdə biri qeyri-qanuni olmuşdur. Avropanın cənubi ölkələrində isə qeyri-qanuni doğulmuşb uşaqların sayı hələlik az olsa da, tədricən artmaq üzrədir.

*Şimali Amerikada aparılmış tədqiqatlara əsasən, Kanadalıların «İnternet»- kompüyuter şəbəkəsinin əxlaqsız proqramlarından istifadə etməsi, onların ailələrinin dağılmasına səbəb olmuşdur.

*Böyük Britaniyada aparılmış statistik hesablamalara əsasən, bu ölkədə doğulmuş uşaqların 87%-i, 15-19 yaşlı qeyri-qanuni yolla cinsi əlaqədə olmuş subay qızlardan olmuşdur. Bu rəqəmlərin Amerikada 62%, Polşada 30%, Yaponiyada isə, 10% olduğu xəbər verilir.

Almaniyanın «Şpigel» həftəlik qəzetinin saylarının birində yazılan məlumata görə, aparılmış hesablamalara əsasən, Almaniyada ailə həyatı get-gedə dağılmaq üzrədir.

*Verilmiş xəbərlərə əsasən, 1995-ci ildə üç Amerikalı əsgər Yaponiyanın «Okinava» adasında 12 yaşlı bir qızı zorlamışlar ki, bu da ada əhalisinin böyük etirazlarına səbəb olmuşdur.

*Amerikada nəşr olunan «Tu, Es, Ey, Tudi» qəzetinin yazdığına görə Amerika Birləşmiş Ştatlarında 1980-cı ildə qurulmuş hər min ailənin 200-ü, 1996-cı ildə isə qurulmuş ailələrin dörddə üç hissəsi boşanmaqla nəticələnmişdir.

*Amerika xəbər agentliyinin şərhçi və yazıçısı cənab «Ceymz», Birləşmiş Ştatların dövlət başçılarını əxlaqi səciyyələri qorumağa çağırmış və kilsənin siyasətə qarışmağını tələb etmişdir. Qeyd etmək lazımdır ki, hal-hazırda Amerika və bir sıra başqa ölkələrdə kişilərin bir-biri ilə evlənməsi qanuni sayılaraq dövlət tərəfindən himayə olunmaq üzrədir.

*Almaniya agentliyinin verdiyi xəbərə görə, dünyada «Spid» xəstəliyinə tutulanların sayı 40 milyon nəfəri

ötmüşdür. Təkcə 1997-ci ildə orta sayla hər gün 16 min nəfər «Spid» xəsətəliyinə tutulmuşdur.

*Almaniyanın iqtisadi həmkarlıq nazirliyinin verdiyi məlumata əsasən, «Spid» xəsətəliyinə tutulanların üçdə ikisi Afrika qitəsinin payına düşür və indiyədək dünya üzrə «Spid» xəstəliyinə tutulanlardan 12 milyon nəfəri bu xəstəlikdən canlarını əldən vermişdir.

*İngiltərənin paytaxtı London şəhərində yayılmış xəbərə əsasən, bu ölkədə mövcud olan ailə həyatının yalnız 25%-i uğurludur. Amerika Birləşmiş Ştatlarında aparılmış tədqiqata əsasən, bu ölkədə yaşayan hər 1000 nəfər dilənçi qadından 5 nəfəri, «Spid» xəstəliyinə tutulmuşdur. əldə olunan məlumatlara əsasən, hər 20 Amerikalının bir nəfəri ruhi xəstəliklərə tutularaq, ömrünün müəyyən hissəsini ruhi xəstəxanalarda keçirmişdir.

*Londonda çap olan «əl-Həyat» qəzetinin yazdığına görə, Yəmən ərəb Respublikasında aparılmış tədqiqatlara əsasən bu ölkədə «Spid» xəstəliyinə tutulanların 68%-i kişi, qalan 32%-i isə qadınlar təşkil verir.

*Amerikanın –SNN- (Si.En.En.) agentliyinin Buxarest şəhərindən verdiyi xəbərə əsasən Avropa qitəsində «Spid» xəstəliyinə tutulan uşaqların yarısı Rumuniyanın payına düşür və hər ay on beş nəfərə yaxın «Spid» xəstəliyinə tutulmuş uşaq, müxtəlif xətəxanalara gətirilir.

*Çin Xalq Respublikası sanitarlarının dediyinə əsasən ölkədə «Spid» xəstəliyinə tutulanların sayı 300000 nəfəri ötmüş və Çində «Spid» xəstəliyinin əsas amili, cinsi əlaqədən ibarətdir ki, hazırki vəziyyət davam edərsə, on iki ildən sonra Çində bu xəstəliyə tutulanların sayı 10 milyon nəfərə çatacaqdır.

*Almaniyanın «Frankforter» qəzetinin yazdığı xəbərə görə, 1990-cı ildə Kampuçiya ölkəsinə Birləşmiş Millətlər Təşkilatı tərəfindən göndərilmiş sülh qoruyan ordu, bu ölkədə sülh və əminamanlıq yaratmaq əvəzinə pozğunluq və «Spid» xəstəliyinin yayılmasına səbəb olmuşdur. Qəzetin yazdığına görə halhazırda Kampuçiya ölkəsində 200- 207-yə yaxın ailə öz ailə üzvlərindən birinin özünü sataraq qazandığı pul ilə keçinirlər ki, bu da «Spid» xəstəliyinin yayılmasına səbəb olmuşdur. Belə ki, Kampuçiyanın bütün şəhər və kəndlərində fəsad mərkəzləri fəaliyyət göstərir.

*Birləşmiş Millətlər Təşkilatının nəzdində fəaliyyət göstərən «Yunesko» cəmiyyətinin yaydığı xəbərə əsasən hər 6 saniyə ərzində dünyada bir nəfər «Spid» xəstəliyinə tutulur.

*Son illərdə Fransa agentliyinin verdiyi xəbərə əsasən bu ölkədə olan subay qızların 34%-i, öz atalarının cinsi təcavüzünə məruz qalırlar.

Əziz oxucu, bu məlumat və hesabatlarla sizi yormaq istəmirik. Məqsədimiz yalnız sizi dünyanın acınacaqlı vəziyyəti ilə tanış etmək, həmçinin zehninizdə «bəs nə etmək lazımdır?» sualını vücuda gətirməkdir.

Bizim bu sual üçün lazımlı cavablarımız olduğu halda, çox yaxşı olardı ki, hər şeydən öncə cinsi azğınlığın əsas amili və səbəblərini diqqətinizə çatdıraq.

## AMİLLƏR VƏ SƏBƏBLƏR

Əsasən gənclər və yeniyetmələrin cinsi azğınlığının başlıca səbəbləri aşağıdakılardan ibarətdir:

1-Düzgün tərbiyənin olmaması və imanın zəifliyi; Bir çox validenlərin gümanınca, onların öz övladları üzərində olan vəzifəsi, yalnız yemək, geyim və sağlamlıqlarını qorumasından ibarətdir. Bu isə yalnış bir fikirdir. Valideynlər bunlardan əlavə, övladlarının tərbiyəsinə də diqqət yetirməli və onlara düzgün tərbiyə verməlidirlər;

Əxlaqsız televizor, video verlişləri və şəkillərə tamaşa etmə Ev mühitinin və yaxud ictimai mühitin korlanması; Valideynlərin ailə məsələlərində dinin göstərişlərinə riayət etməməsi; Yəni onların cinsi məsələlərdə ehtiyatsızlıq etməsi və s...

Həzrət imam Sadiqin (ə) buyurduğuna əsasən, ata uşaq olan otaqda öz həyat yoldaşı ilə cinsi əlaqədə olmamalıdır.

Məlum olduğu kimi, belə bir səhnəni müşahidə edən körpə, heç vaxt cinsi azğınlıqdan amanda qala bilməz. Bu isə valideynlərin nə qədər ağır vəzifə daşıdığını göstərir.

5-Əxlaqsız və pis adamlarla dostluq etmək;

6-Azğınlaşmış şəxslərin cinsi məsələlər haqqında söhbətlərinə qulaq asmaq;

7-Təklikdə cinsi ləzzətlər haqqında fikirləşmək və xəyalllara danmaq;

8-Haram baxışlar;

9-Bekarçılıq və vaxtı boş keçirmək;

10-Yalançı və məcazi eşqbazlıq etmək;

11-Valideynlərin öz övladlar- ına qarşı laqeydliyi;

Hörmətli valideynlər bilməlidir ki, gənclərin mübtəla olduğu cinsi azğınlıqların mühüm bir hissəsi də onların öhdəsinə düşür.

Həzrət Məhəmməd (s) buyurur: İmkanı olan halda boya-başa çatmış övladını evləndirməyən (valideynin) övladı günaha düşərsə, bu günah onların hər ikisi (övlad və valideyn) üçün yazılar.

Başqa sözlə, yetginliyə çatmış gənc, yetişmiş meyvəyə bənzədilmişdir ki, belə bir meyvə dərilməsə, günəş altında qalaraq xarab olub çürüdüyü kimi, evlənməyən gənc də azğınlığa düşüb, həyatını korlamış olar.

Hörmətli oxucu! Gördüyünüz kimi sadaladığımız mətləblər insanın fərdi və ictimai həyatında baş verən cinsi azğınlığların başlıca amilləridir ki, bunların hamısı müqəddəs islam dini tərəfindən valideynlərə təkidlə sifariş olunmuşdur.

Bildiyiniz kimi İslam dini ictimai bir din olduğu üçün ictimaiyyətdə hər növ fəsad və xarabkarlıqla ciddi mübarizə aparır. Cinsi azğınlıq da öz növbəsində insanın fərdi və ictimai həyatı üçün ən böyük fəsad və xarabkarlıq amilidir. Elə buna görə də əziz peyğəmbərimiz həzrət Məhəmməd (s) buyurmuşdur:

«Ümmətim üçün iki şeydən qorxuram: Onlardan biri qarın, digəri isə övrətdir». Çünki

ümmət bu iki şeyin vasitəsi ilə zülm, fəsad və bu kimi azğın işlərə mürtəkib ola bilər.

## Bu haqda İslam dini və fəqihlərin nəzəri

Bəşəriyyətin hidayət kitabı olan Qurani-kərimdə buyurulduğu kimi cinsi ləzzətlərdən bəhrələnmək yolu yalnız halal və qanuni həyat yoldaşları ilədir. Qur''ani-kərimdə oxuyuruq:

فَمَنِ ابْتَغَى وَرَاء ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الْعَادُونَ

(«Cinsi ləzzətdə halal qadınlardan) savayı ayrı bir yolla bəhrələnən şəxs zalım və təcavüzkardır. [6]

Beləliklə Qur''ani-kərimin bizə göstərdiyi yeganə yol, ailə həyatı qurmaq və qanuni yolla Allahın bizə verdiyi cinsi istəklərin təlabatını ödəməkdən ibarətdir. İndi isə bu haqda nəql olunmuş bir neçə hədis və rəvayətlərə nəzər salaq:

Əziz peyğəmbərimiz həzrət Məhəmməd (s) buyurub:

Zinakarlığın altı təsiri var. Onların üçü dünyada, üçü isə axirət aləmində olacaqdır. Dünyada olan üç təsiri bunlardır: 1)-Zinakarın abrının getməsi; 2)-ölümünün tez çatması. (Az yaşaması); 3)-Ruzisinin kəsilməsi.

Axirət aləmində olan üç təsiri isə bunlardır:

---

[6] Mö''minun surəsi, ayə-7.

1)-Ondan ağır hesab çəkilməsi; 2)-Allahın ona qəzəb etməsi; 3)-Cəhənnəm odunda əbədi qalması;

Həzrət imam Baqir (ə) buyurub: Müsəlaman, Yəhudi, Məsihi və ya Zərdüşt dinindən olan (azad qadın və ya kənizlə) zina edən şəxs, tövbə etmədən (bu çərkin işini davam etdirərək) dünyadan gedərsə, Allah-təalanın fərmanı ilə onun qəbrinə üç yüz qapı açılacaq və hər qapıdan oddan olan böyük ilanlar, əqrəblər çıxacaq və zinakar şəxs Allahın fərmanı ilə Qiyamət gününədək odda yanacaqdır.

Həzrət imam Sadiq (ə) buyurub: Allah-təala zinanı (qeyri qanuni cinsi əlaqəni), adam öldürmək, nəsillərin itib aradan getməsi, övladlara tərbiyə verilməməsi və irsin aradan getməsi kimi fəsadlara səbəb olduğu üçün haram etmişdir.

Həzrət imam Sadiq (ə) buyurub: İki kişinin bir-biri ilə cinsi əlaqədə olmasının həramlığı zinakarlığın haram olmasından üstündür. Həqiqətən Allah-təala bu çirkin əməl üçün (Lut peyğəmbərin (ə) ümmətini) həlak etmiş, zinakarlıq üçün isə bir kəsi həlak etməmişdir.

Həzrət Məhəmməd (s) buyurub: Öz əli ilə şəhvətini xaric edən (cinsi ləzzətdən bəhrələnən) şəxs məlundur (lənətlənmişdir).

Həzrət imam Sadiqdən (ə) istimna (süni yolla özündən sperma xaric edilməsi) barəsində soruşduqda buyurdu: Bu əməl Allah-təalanın Quranda nəhy etdiyi böyük günahlardandır.

Əziz oxucu! İndi isə Şiə məzhəbinin məşhur fəqihlərindən biri, Şəhid Əvvəlin (rə), Lümətud-

dəməşqiyyə kitabında cinsi azğınlıq haqqında verdiyi bir neçə hökmlərə diqqət yetirək.

Şeyx Əbu Əbdillah Şəmsəddin Məhəmməd əl-Amili Şəhid əvvəl (rə) özünün «Lumətud-dəməşqiyyə kitabının «Hüdud» fəslində yazır:

1-Öz məhrəmi ilə zina edən şəxsin, müsəlman ölkəsində yaşayaraq müsəlman qadınla zina edən kafirin və həmçinin bir qadını zorlayan şəxsin cəzası ölümdür.

2-Həddi buluğa çatmış və ağıl sahibi olan bir qızla (qadınla) zina edən evli kişinin cəzası daşqalaq olmaqdır.

Ümumiyyətlə qeyd etdiyimiz kimi, İslam dini ictimai bir dindir. Ona görədə ictimaiyyətib korlayan hər hansı bir pozğunluqla amansız mübarizə aparır, zinakarlıq və cinsi azğınlıqlara qarşı şiddətli hökmlər verir. Məsələn cinsi əlaqədə olan iki kişi bu çirkin işi bilərəkdən, həddi-buluğa çatmış halda, həmçinin dörd nəfər adil (ədalətli) şəxsin gözü qarşısında edərlərsə, hər ikisi öldürülməli, daşqalaq olunmalı və yaxud hakimin göstərişinə əsasən başqa yollarla cəzalandırılmalıdır.

Həmçinin bu haqda müasir müctehidlərin nəzəriyyələri ilə də tanışlıq yerinə düşərdi. Burada onların adları və cinsi azğınlıq barədə verdiyi fətvaları ilə tanış olaq:

1-Ayətullahil-üzma imam Xomeyni (rə).

2-Ayətullahil-üzma Əraki (rə).

3-Ayətullahil-üzma Qulpayeqani (rə).

4-Ayətullahil-üzma Xoyi (rə).

5-Ayətullahil-üzma seyyid Əli Xamenei.

6-Ayətullahil-üzma Fazil Lənkərani.

7-Ayətullahil - üzma Behcət.

8-Ayətullahil - üzma Məkarim Şirazi.
9-Ayətullahil - üzma Safi Qulpayeqani.
10-Ayətullahil - üzma Cavad Təbrizi
11-Ayətullahil - üzma Hüseyni Sistani.
12-Ayətullahil - üzma Salehi Mazandərani.

Adlarını sadaladığımız müctehidlər hamılıqla belə bir fətva vermişlər:

«Subaylıq ucbatından günaha düşən hər bir şəxsin evlənməsi vacibdir.»

Bu da müqəddəs İslam dininin insanın fərdi və ictimai həyatına verdiyi xüsusi əhəmiyyəti çatdırır. Sair din və məzhəblər isə belə deyildir. Çox təəssüflər olsun ki, qərb aləmi bu qədər rusvayçılıqdan sonra, yenə də özünü və öz mədəniyyətini bəşəriyyət səadəti üçün yeganə yol adlandırır və bəzi müsəlman ölkələri də bu iddiaya uyub qərbin «mədəni yürüşlər»-i qarşısında susurlar.

## TİBB ELMİ NƏ DEYİR?

Zinakarlıq nəticəsində hal hazırda saysız -hesabsız insanlar,«Suzak», «Suflis» və bu kimi qorxulu və yolxucu xəstəliklərə tutulmuşlar. Bu xəstəliklər qeyri-qanuni cinsi əlaqə nəticəsində vücuda gəlir və tez bir zamanda insanın bir sıra bədən üzvlərinə öz qorxulu təsirini qoyur. «Suzak» xəstəliyinin mikrobu gözə çatarsa, onun görmə qabiliyyətini aradan aparır və get-gedə bədən üzvlərində çirk yaranmasına səbəb olur.

Həmçinin bu kimi qorxulu xəstəliklər, o cümlədən «Spid» xəstəliyi də kişilər arasında baş verən bir sıra cinsi azğınlıqlardan irəli gəlir və beləliklə qadınlar arasında da yayılmağa başlayır.

Qeyd etdiyimiz kimi, hal-hazırda hər 6 saniyədə bir nəfər «Spid» xəstəliyinə tutulur ki, bu xəstəliyə tutulanların sayı hal hazırda 40 milyon nəfərə yaxındır.

İstimna (yəni bədən üzvləri ilə özündən süni yolla sperma xaric etmək), tibbi nöqteyi nəzərdən çox zərərli olub, həmçinin mütəxəssis həkimlər tərəfindən bir çox xəbərdarlıqlar verilmiş və deyilmişdir ki, istimna ilə məşğul olan şəxs, aşağıdakı çətinliklərlə üzləşəcəkdir:

1-İnsanın ruhi və cismi zəifliyi və nəhayətən vaxtından qabaq qocalması;

2-Əsəb sisteminin zəifləyib korlanması;

3-Hafizə və yaddaşın itməsi;

4-Görmə qabiliyyətinin zəifliyi;

5-İştəhasızlıq;

6-Sümük və oynaqların zəifliyi;

7-Eşitmə qabiliyyətinin zəifliyi;

8-Sidik məcrasından çirk və ya qan gəlməsi;

9-Şiddətli baş ağrılarının yaranması;

10-Bu iş davam edərsə, bədən üzvlərinin iflic olması; Bunlardan daha mühüm məsələ istimna ilə məşğul olan şəxsin öz əli ilə gələcək səadət, xoşbəxtlik və inkişafını məhv etməyidir.

Beləliklə qeyd olunmuş tibbi nəzərlərin, İslam dininin göstərişlərinin doğru olduğunu sübut etdiyini görür və bir daha qərb mədəniyyəti və sair dinlərin bəşəri hidayət etəməkdə aciz qaldığını təsdiq etməli oluruq.

## XƏBƏRDARLIQ

Əziz bacı və qardaşlar! Bura qədər cinsi azğınlığın növləri, onların səbəb və amilləri və bu haqda müqəddəs İslam dini, həmçinin tibb elminin icmali nəzəriyyələri ilə tanış oldunuz. Yuxarıdakı fəsillərdən bu azğınlıq növlərinin nə qədər qorxulu və təhlükəli olduğunu bildiniz, amma bu azğınlıqdan daha qorxulu şey ümidsizlikdir.

Əgər (Allah göstərməsin) bu azğınlığa düşmüsünüzsə, heç də ümidinizi kəsməyin. Möhkəm iradə və ciddiyyətlə qərara gəlib, gələcək həyatınızın xoşbəxtliyi, ölkəmizin müstəqilliyi və əbədi səadətiniz naminə hər növ azğın işlərdən əl çəkin.

Bu yolda heç vaxt və heç zaman sarsılmayın. Çünki, biz müsəlmanıq və Allah-təala müqəddəs kitabımız olan Qurani-kərimdə günahkarlara belə buyurur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ (53) وَأَنِيبُوا إِلَى رَبِّكُمْ وَأَسْلِمُوا لَهُ مِن قَبْلِ أَن يَأْتِيَكُمُ الْعَذَابُ ثُمَّ لَا تُنصَرُونَ

Ey peyğəmbər! günahkarlıqla) öz nəfslərinə qarşı israf edən bəndələrimə de ki, heç vaxt Allah rəhmətindən naümid olmasınlar,  bağışlayacaqdır. Allah bağışlayan və mehribandır. Allah əzabı gəlməmişdən öncə (hamılıqla)

Onun dərgahına qayıdıb tövbə edin və yalnız Onun ) fərmanlarına təslim olun. [7]

Əziz oxucu! Gördüyünüz kimi tövbə qapıları bizim üzümüzə açıqdır və Allah - təala bizdən ona tərəf tövbə edib Allah rəhmətindən ümidimizi kəsməməyi istəyir.

Cinsi azğınlıq insan həyatı üçün bədbəxtlik sayılırsa, Allah rəhmətindən ümidsüz olmaq, daha böyük bədbəxtlik və ziyankarlıqdır.

Həzrət Əmirəl-möminin Əli (ə) buyurub: Ümidsizlik öz sahibini həlak edər. Beləliklə cinsi azğınlığın istər fərdi, istərsədə ictimai həyatda qoyduğu pis və acınacaqlı təgsirlərini yada salıb, möhkəm iradə və böyük ümidlə doğru yola üz gətirərək, özünüzü dünyada bir ömür boyu bədbəxtçilik, axirətdə isə şiddətli əzablardan qurtarın. əlbəttə keçmiş günahlarınız haqqında heç kəsə bir söz deməyib onu özünüzlə Allah arasında sirr olaraq saxlayın. Çünki günahı dilə gətirməyin özü, böyük günahlardan sayılır.

---

[7] Zumər surəsi, 53 və 54-cü ayələr.

## ÇIXIŞ YOLU

Cinsi azğınlığın amilləri və bu haqda İslam dini və tibb elminin nəzərləri ilə tanış olduqdan sonra, kitabın bu fəslində, zehninizdə vücuda gəlmiş «bəs nə etmək lazımdır?»-sualının cavabı haqqında danışacaq və siz əzizlərə lazımlı göstərişlər verəcəyik.

İslam dini heç də insan vücudunda qoyulmuş cinsi istəkləri inkar etməyib, bu istəklərin Allah tərəfindən insana hədiyyə olunduğunu təsdiq edərək, ondan düzgün istifadə edilməsini tələb edir. Beləliklə cinsi istəklərin bir həqiqət olaraq hər bir insanın (kişi və qadının) vücudunda özünə məxsus yeri vardır. Lakin onu hansı yolla sakitləşdirməyə gəldikdə, bir çox insanlar öz yolunu azmış və böyük olan Allahın bizə hədiyyə etdiyi bu istəyin qarşısında israfkarlıq və yaxud nankorluq etmişlər.

Hər bir insan, cinsindən asılı olmayaraq, öz cinsi istəkləri qarşısında üç yoldan birini seçə bilər ki, bu üç yol, aşağıdakılardan ibarətdir:

1-Cinsi istəkləri təmamilə aradan aparıb, özünü bu cür meyllərdən xilas etmək. Məsələn; müxtəlif bitki və yaxud kimyəvi dərmanlar, həmçinin cərrahi əməl vasitəsi ilə özünü əbədi olaraq sonsuz etmək və s...

Bu yol, insanı cinsi istəklərin hücumlarından qoruyarsada, onun iradə zəifliyi, Allahın məsləhətlərinə etiraz etməsi, küfrü və həmçinin əbədi bədbəxtçiliyi ilə sona çatar. Bundan əlavə onun cisim və ruhunu da

korlayıb, xarab edər. Beləliklə birinci yol, müqəddəs İslam dininin nəzəri ilə heçdə uyğun deyildir.

2-Cinsi istəkləri insaniyyətdən kənar yollarla (azğın yollarla) ram etmək. Məsələn; zinakarlıq, (kişi ilə qadının qanunsuz olaraq cinsi əlaqədə olması), kişi ilə kişinin cinsi əlaqədə olması, istimna (bədən üzvləri ilə cinsi orqandan sperma xaric edilməsi) və s...Bu yol da birinci yol kimi, insaniyyətdən kənar olduğu üçün, həmçinin insanın əxlaqi səciyyələri, gələcək parlaq həyatı və onun fərdi-ictimai həyatı üçün bədbəxtçilikdən savayı bir şey vermədiyindən, qadağan və azğın bir yoldur.

Bu cür cinsi azğınlıqlara düşmüş şəxslər, get-gedə öz dini, vətəni və namusuna qarşı laqeyd olacaq və beləliklə də öz əlləri ilə özlərinə quyu qazmalı olacaqlar.

Əlbəttə cinsi azğınlığın nə qədər fəsad törətdiyi, həmçinin onun tibbi nöqteyi-nəzərdən nə qədər ziyanlı olması barədə, öncə fəsillərdə söhbət açıb, bir sıra məlumatları diqqətinizə çatdırdıq və bu barədə artıq izaha ehtiyac duyulmur.

3-Cinsi istəkləri insaniyyətə yaraşan doğru və qanuni yollarla sakitləşdirmək; Məsələn; müqəddəs İslam şəriətinin göstərişinə əsasən ailə həyatı qurmaq. Bu yol isə insanı səadətə çatdıran yeganə yoldur və hər bir insan (kişi və yaxud qadın) təkcə bu yol vasitəsi ilə öz cinsi istəklərinə müsbət cavab verə bilərlər.

Müqəddəs İslam dini də yalnız bu yolu bəyənmiş və yalnız bu yolu məsləhət görmüşdür. Biz insanı başqa varlıqlarla müqayisə etdikdə, onları bir çox xüsusiyyətlərdə eyni görürük ki, qəzəb, şəhvət və s... o

cümlədəndir. Lakin insanı heyvanlardan ayıran əsas amil, onun ağlıdır ki, sair heyvanlar buna malik deyillər.

Elə buna görə də insan öz ağlından istifadə edib, cinsi məsələlərdə insaniyyətə yaraşan bir yol ilə getməlidir.

İndi isə cinsi azğınlığa düçar olmuş əziz gənclər və yeniyetmələrə kömək əlimizi uzadararaq, bir neçə çıxış yolunu sadalamaq istəyirik:

Müqəddəs İslam dininin üzərində təkid etdiyi mühüm məsələlərdən biri də tövbə (Allaha tərəf qayıtmaq)-dan ibarətdir. Günahkar insan etdiyi günahlarından tövbə etməyincə çəkdiyi bütün zəhmətləri puça çıxacaqdır. Ümidvarıq ki, bura qədər mübtəla olduğunuz bu böyük günahın nə qədər qorxulu və özünüz üçün ziyanlı olduğunu başa düşmüş və bu çətinlikdən qurtarmaq arzusundasınız.

Keçmiş günahlardan həqiqi halda peşman olmayıb, tövbə etməyincə hər növ səy və təlaşınız təsirsiz olacaqdır. Elə buna görə də hər növ göstəriş və əməldən öncə qəti qərarla tövbə edib, bir daha keçmiş günahları əncam verməməyiniz üçün özünüz və Allahla əhd etməyiniz tövsiyyə olunur.

Mümkün qədər təklikdə bu günahın nə qədər qorxulu və İlahi qəzəbə səbəb olması haqda fikirləşib, qəti qərara gələrək tövbə edin. Qurani-kərimdə oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَّصُوحًا

Ey iman gətirənlər! Həqiqi tövbə ilə Allaha tərəf qayıdın...[8]

---

[8] Təhrim surəsi, ayə-8.

Yaddan çıxarmayaq ki, bizi bu tövbəyə çağıran mehriban və bağışlayan, həmçinin günahlardan keçən böyük Allahdır. Siz Allahın bu çağırışına necə cavab vermək istəyirsiniz?

Qur''ani-kərimin digər yerində buyurur:

وَهُوَ الَّذِي يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ وَيَعْفُو عَنِ السَّيِّئَاتِ

Və o Allah, bəndələrinin tövbəsini qəbul edən və günahları bağışlayandır...[9]

Beləliklə sizi hər şeydən öncə Allaha tərəf qayıdıb tövbə etməyə dəvət edirik.

Tövbə edənlər isə Allahın sevimli bəndələrindən olacaqdır. Həqiqi tövbə etdikdən sonra verilən məsləhətlərə layiqincə əməl edib öz gələcək səadət və xoşbəxtliyinizi təmin edin.

Bu yolda insanlar və cinlərdən olan şeytanlar sizin tövbə etməyinizi təxirə salmaq istəyərlərsə, onlara üz tutub deyin: «Mən öz Rəbbim qarşısında çox günahlar etmişəm, amma O mənim günahlarımı başqalarından gizlədərək məni qoruyub saxladı. İndi isə həqiqi və səmimi qəlb ilə ona tərəf qayıdıb, düzgün və yaxşı insanlardan olmaq istəyirəm. Bu yolda hər növ təxir mənim öz ziyanıma olacaqdır. Çünki mən bir andan sonra başıma nə gələcəyini bilmir və bundan sonra neçə il yaşaya biləcəyimdən xəbərsizəm.»

Qeyd etməliyik ki, insansifət şeytanların vəsvəsəsi, cinnlərdən olan şeytanların vəsvəsəsindən daha da güclüdür. Belə ki, cinnlərdən olan şeytan yalnız

---

9 Şura surəsi, ayə-25.

qəlblərdə, insansifət şeytanlar (məsələn; pis dostlar) isə dildə və əməldə insanı günahab doğru çəkərlər. əziz bacı və qardaşlar!

Tövbə etdikdən sonra bu göstərişlərə lazımınca əməl edin və Allahın tövbə etdiyinizə görə sizə edəcəyi köməklərə inanın:

1-Özünüzü əxlaqsız və fəsadlı yerlərdən uzaqlaşdırıb, təklikdən qorunun;

2-Hər növ fikir və xəyalınızı ciddi şəkildə kontrol edin. Çünki hər növ cinsi azğınlığın ilk mərhələsi bu haqda (cinsi ləzzətlər haqda) fikirləşməkdən irəli gəlir ki, bu da qapı və pəncərəsi bağlı olan bir otaqda tonqal qalamaq kimidir. Od evi yandırmasada onun qara hissləri evi korlayıb yanmaq üçün hazırlayır.

Nəql olunmuş rəvayətə əsasən bir gün həzrət İsa peyğəmbər (ə) səhabələrinə üz tutaraq belə dedi: Musa peyğəmbər sizə zina etməyi qadağan etdi. Mən isə sizə zina haqqında fikirləşməyi belə qadağan edirəm.

Çünki , bu haqda fikirləşmək zinakarlığa gətirib çıxarar.

3-Naməhrəmələrə baxmaqdan özünüzü qoruyun. Həzrət İmam Sadiq (ə) buyurur: (Naməhrəmə) baxmaq, şeytanın zəhərli oxlarından biridir və çox baxışların nəticəsi böyük həsrət olmuşdur.

İndi isə Qurani-kərimin Nur surəsində verilmiş iki mühüm göstərişə diqqət yetirək:

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ إِنَّ
وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ
فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى
جُيُوبِهِنَّ

(Ey peyğəmbər!) Mömin kişilərə de ki, gözlərini (haram baxışlardan) yumusunlar və övrətlərini (qeyri - qanuni işlərdən) qorusunlar ki, bu onların (ruh və cismləri) üçün daha yaxşıdır. Şübhəsiz Allah - təala sizin işlərinizdən agahdır. Və (ey peyğəmbər!) Mömin qadınlara (qızlara) de ki, gözlərini (haram baxışlardan) yumub, övrətlərini (əxlaqsız) əməllərdən) qorusunlar...[10]

Beləliklə haram və qadağan olunmuş baxışlardan qorunmaq təkcə kişilərə deyil, qadın və qızlara da aiddir.

Qadınlar da kişilər kimi gözlərini haram baxışlardan qorumalıdırlar. Çünki örpək (hicab) Allah hökmü olmaqla yanaşı bir çox ictimai və hətta fərdi pozğunluqların qarşısını alan mühüm amillərdən biri sayılır.

4-Dar və kip libaslar geyinməyin. Çünki bu cür libasları geyinmək insanın özü və başqaları üçün də belə öz pis təsirini qoyur.

5-Bekarçılıq və fəaliyyətsizlikdən çəkinin. Çünki adətən cinsi azğınlıqlar bekarçılıq və təklikdən irəli gəlir. Beləliklə əziz oxuculara tövsiyə olunur ki, boş vaxtlarını dəyərli və xeyirli işlərlə məşğul olmaqla doldursunlar. Məsələn faydalı və dini kitablar oxumuaq, müxtəlif xarici dillərə yiyələnmək, Qurani-kərimi oxuyub öyrənmək, istədiyiniz idman növü (futbol, valeybol, güləş, karate və s...) ilə məşğul olmaq və s...

Əlbəttə bütün bunların hamısı, gündəlik işimiz və ibadətlərdən sonra olmalıdır. Çünki halal pul qazanıb

---

[10] Nur surəsi, 30 və 31-ci ayələr.

ailə dolandırmaq, İslam dininin əsas göstərişlərindən biridir.

6-Sizi azğınlığa tərəf çəkən bütün dost-tanışlarla əlaqənizi kəsib, doğruçu, Mömin və yaxşı insanlarla dostluq rabitəsi saxlayın. Həzrət Əli (ə) buyurub: (Əsil) dost o şəxsdir ki, zülm və düşmənçilikdən çəkindirib, yaxşılıq və ehsan üçün kömək etsin.

O həzrət (ə) başqa bir hədisdə buyurur:

Ən pis dostun, səni batil (azğın) işlərə vadar və razı edəndir.

7-Cinsi istəklər sizə güc gələrsə, bacardığınız qədər heç olmasa həftədə bir-iki gün oruc tutun.

Əziz peyğəmbərimiz həzrət Məhəmməd (s) buyurur: Oruc Şeytanın üzünü qaraldır.

8-Gündəlik yeməklərinizə diqqət yetirib, bacardığınız qədər qoz, püstə, şiriniyyat və bu kimi yeməklərdən az istifadə edin.

9-Hər növ fikir və istəklərinizi gələcək günlər üçün (evlənəcəyiniz günlərə) saxlayın və imkan olan surətdə münasib və həyalı bir qızla ailə həyatı qurun.

Həzrət Məhəmməd (s) buyurmuşdur:

Ailə həyatı quran şəxs dininin yarısını qoruyub saxlamışdır, onun qalan hisssəsini isə pərhizkarlıqla qoruyub saxlayın. Həmçinin bu yolda yoxsulluqdan qorxmayın. Çünki Allah-təala Qurani-kərimdə buyurur:

وَأَنكِحُوا الْأَيَامَى مِنكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ إِن يَكُونُوا فُقَرَاء يُغْنِهِمُ اللَّهُ مِن فَضْلِهِ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

Yoldaşsız qadın və kişiləri, həmçinin saleh xadim və kənizləri də evləndirin. Onlar yoxsul olarsa, Allah onları

öz fəzlindən ehtiyacsız edəcəkdir və Allah (ruziləri) genişləndirən və agahdır.[11]

10-Həmişə Allahı yad edib, heç vaxt onu unutmayın və yalnız ondan kömək diləyin. Qurani-kərimdə oxuyuruq:

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

Agah olun ki, yalnız Allahı yad etməklə qəlblər rahatlıq tapar.[12]

Digər yerdə oxuyuruq:

( اتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنَ الْكِتَابِ وَأَقِمِ الصَّلَاةَ إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاء وَالْمُنكَرِ وَلَذِكْرُ اللَّهِ أَكْبَرُ وَاللَّهُ يَعْلَمُ مَا تَصْنَعُونَ

Şübhəsiz namaz (insanı) hər növ azğınlıq və pislikdən uzaqlaşdırır və şübhəsiz Allahın zikri çox böyükdür.[13]

Allah-təala Quranın ayrı bir yerdində isə belə buyurur:

وَمَنْ أَعْرَضَ عَن ذِكْرِي فَإِنَّ لَهُ مَعِيشَةً ضَنكًا

Allah zikrindən (Allahı yad etməkdən) üz döndərən şəxsin həyatı və yaşayışı onun üçün çətin olacaqdır.[14]

Bəli, insanı hər cür azğınlıqdan qoruyub əbədi səadətə çatdıran və onu hər növ pisliklərdən çəkindirən amil, namazdır.

Ümumiyyətlə insan, həmişə öz hərəkət, istək, fikir və xəyallarını kontrol etməli və bu yolda ciddiyyət köstərməlidir.

---

[11] Nur surəsi, ayə-32.

[12] Rə"d surəsi, ayə-28.

[13] ənkəbut surəsi, ayə-45.

[14] Taha surəsi, ayə-124.

Ayətullah şəhid Mütəhhəri (rə) özünün «İmam Əlinin (ə) cazibə və dafiəsi»-adlı kitabında bu mühüm məsələyə toxunaraq belə yazır:

«İnsan bəzi vaxtlar, əsası cinsi ləzzətlər olan bir sıra güclü (şəhvətlər)-in təsiri altına düşür ki, bu cür güclü istəklər, ifraz və doyduqdan sonra sakitləşir...

Lakin bu növ (istək və şəhvətlərlər) insan həyatı üçün qorxulu və dəyərsizdir. Yeganə çıxış yolu isə iffət və özünü qorumaqdır ki, insan yalnız bu yolla mənfəət əldə edə bilər.»

Əziz oxucu! Yuxarıda qeyd olunmuş məsləhət və göstərişlər, sizin üçün ən münasib kömək və çıxış yoludur. Onlara layiqincə əməl edib, bu yolda möhkəm iradəli olun və bu azğınlığı tərk edə biləcəyinizə inanın.

İnşaallah, özünüzü hər növ azğınlıqdan xilas etdikdən sonra bir daha ona mübtəla olmayasınız deyə, ehtiyatlı olun və daima Allahdan kömək diləyin. Allah isə ondan kömək diləyənlərə rədd cavabı verməz.

Gənclik həyatınızın qədrini bilib, özünüzü şirin ailə həyatı qurmağa hazırlayın. Heç vaxt naümid olmayın və həmişə ümidlə yaşayın. İnşaallah.

## MƏSUMLARDAN BİR NEÇƏ HƏDİS

Bu fəsildə isə məsumlardan (ə) nəql olunmuş bir neçə dəyərli hədisi siz əzizlərin diqqətinə çatdırır və onlara əməl etməyinizi arzulayırıq.

*Həzrət Məhəmməd (s) buyurub: Allah yanında tövbə etmiş Mömin kişi və ya Möminə (qadından) daha sevimli bir şey yoxdur.

*Həzrət Məhəmməd (s) buyurub: Günahdan tövbə etmiş şəxs, günah etməyən kimidir.

*Həzrət Əli (ə) buyurub: Etdiyin günahdan peşman olmaq onu aradan aparır.

*Həzrət Əli (ə) buyurub: Hər kəsin nəfs və şəxsiyyəti öz gözündə uca olsa, şəhvət onun gözündə dəyərsiz və alçaq olacaqdır.

*Həzrət Əli (ə) buyurub: Azacıq və ötəri şəhvətlər, uzun-uzadı qəm-qüssə ilə nəticələnər.

*Həzrət Məhəmməd (s) buyurub: İlahi mələk hər gecə çağıraraq belə nida edər: Ey iyrimi yaşlı (gənclər!) öz səadətiniz üçün səy və təlaş edin.

*Həzrət Əli (ə) buyurub: İki şey var ki, onu itirəndən başqa qədrini bilən olmaz. Onlardan biri gənclik, digəri isə sağlamlıqdır.

*Həzrət Əli (ə) buyurub: Gəncliyinin qədrini qocalıqdan, sağlamlığının qədrini isə xəstəlikdən qabaq bil.

*Həzrət Məhəmməd (s) buyurub: Qiyamət günü bəndə bir qədəm belə götürməmişdən əvvəl, bu suallar ondan soruşulacaq:

1-Ömrünü hansı işdə sona çatdırmısan?

2-Gəncliyini hansı yolda sərf etmisən?

*Həzrət Məhəmməd (s) buyurub: Hər kəs Allahla təmiz halda görüşmək istəyirsə, evlənməlidir.

*Həzrət Məhəmməd (s) buyurub: Evlənmək mənim davranışımdan dır, beləliklə hər kəs mənim davranışımdan üz döndərsə, məndən deyildir.

*İmam Sadiq (ə) buyurub: Şübhəsiz qadın boyunbağı kimidir, beləliklə boynunuza hansı boyunbağını saldığınıza diqqət yetirin.

** ** ** ** ** ** ** ** ** **

İlahi! Məhəmməd və Ali-Məhəmməd (s) ehtiramına ölkəmizin əziz gəncləri və yeniyetmələrini hər növ azğınlıqdan qoruyub saxla və onlara ölkəmizin müstəqilliyini qoruyub saxlamaqda yar ol.

İlahi! Bircə anda bizləri öz başımıza qoyma.

**Amin**.